## Azərbaycan və Polşa arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq

- 2025, 7 avqust – Agentliklə Polşa Respublikasının Bitki Mühafizəsi və Toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında onlayn görüş keçirilmiş, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qeydiyyatı, ekspertizası, təhlükəsiz istifadəsi, dövriyyəsinə nəzarət və monitorinq mexanizmləri üzrə qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır. Polşa tərəfi pestisid və gübrələrin qeydiyyat prosedurları, ekspertiza qaydaları, toksikoloji qiymətləndirmə metodları, eləcə də etiketləmə və laborator tələblər barədə məlumat vermişdir. Həmçinin, istehsal, saxlanma, satış və istifadəyə dair texniki və normativ tələblər müzakirə edilmiş, bu sahədə əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəlinmişdir.
- 2025, 1 avqust – Agentlik Kollegiyasının 60 nömrəli Qərarına əsasən Polşanın qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyinin tanınması qərara alınmışdır.
- 2025, avqust-sentyabr – Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyaları Polşanın “LGC” şirkətinin səriştəlik testlərində iştirak edib və sertifikat alıb.
- 2023, 22 iyun — Agentlik və Polşa Baş Baytarlıq Müfəttişliyi arasında virtual görüş keçirilib.
- 2021, 9 dekabr – AQTİ ilə Polşanın Milli Baytarlıq Araşdırma İnstitutu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb
- 2021, 3 mart – AQTA və Polşa Respublikasının Bitki Mühafizəsi və Toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında görüş keçirilib. Görüşdə ikitərəfli əməkdaşlığın inkişafı, Polşaya bitki və bitki məhsulları ixracının artırılması, pestisidlərin monitorinqi və Polşa təcrübəsinin öyrənilməsi müzakirə olunub.
- 2019, 31 may — Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Bitki Mühafizəsi və Toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında fitosanitar sahədə Anlaşma Memorandumu imzalanıb.